# CƏNUBİ AZƏRBAYCANDA DEMOKRATİK HƏRƏKATIN (1941-1946-CI İLLƏR) MƏĞLUBİYYƏTİ: SİYASİ VƏ GEOSİYASİ SƏBƏBLƏR

***Xaqan BALAYEV***[1]
*(Azərbaycan Milli Elmlər Akademiyası)*

## GİRİŞ

Cənubi Azərbaycanda demokratik hərəkatın başlanması, 1945-ci ilin dekabrında Azərbaycan Milli Məclisi və Milli Hökumətinin fəaliyyətə başlayaraq Azərbaycan muxtariyyətinin elan olunması və 1946-cı ilin dekabrında hərəkatın məğlubiyyəti İkinci Dünya müharibəsi və SSRİ-nin Böyük Vətən müharibəsi dövründə İranın sosial və iqtisadi şəraiti, daxili və xarici siyasəti, geosiyasi vəziyyəti, müttəfiq dövlətlərin (SSRİ, Böyük Britaniya, ABŞ) maraq və mənafeləri, qarşılıqlı münasibətlərindəki mürəkkəb və ziddiyyətli proseslərlə əlaqədar idi.

1941-1946-cı illərdə Cənubi Azərbaycanda baş vermiş proseslər sovet, o cümlədən Azərbaycan tarix elmində, vahid siyasi doktrinanın hökm sürdüyü şəraitdə obyektiv tədqiqat aparmaq imkanı olmadığına görə, birmənalı şəkildə milli-azadlıq hərəkatı kimi qiymətləndirilmişdir. SSRİ-nin süqutundan sonrakı ilk illərdə Azərbaycan tarixçilərinə obyektiv tədqiqat aparmaqda sovet rejiminin ideoloji stereotiplərindən əlavə ikiyə bölünmüş xalqın daimi qovuşmaq arzusundan doğan milli təəssüb hissləri də mane olmuşdur. Arxivlərin bağlı olması da öz rolunu oynamışdır.

Son illərdə nəşr olunan elmi ədəbiyyatda hadisələr arxiv sənədləri əsasında bu və ya digər dərəcədə obyektiv şəkildə araşdırılmışdır. Hadisələrə tam obyektiv siyasi qiymət verilməsi üçün tədqiqatların davam etdirilməsinə ehtiyac vardır.

Cənubi Azərbaycandakı hərəkat Sovet İttifaqının yardımı ilə başlayaraq, onun tərəfindən himayə olunsa da, bunun üçün əsaslı sosial və iqtisadi, siyasi şərait var idi. İran əhalisinin üçdə birini təşkil edən, 280 min kvadrat kilometr əraziyə malik olan beş milyonluq Cənubi Azərbaycan xalqı İran dövləti tərəfindən əsrlər boyu iqtisadi əsarətə məruz qalaraq, bütün milli hüquqlarından məhrum edilmişdi. Şovinist İran fars dövləti təhqiramiz üsullardan da çəkinməyərək, Cənubi Azərbaycan xalqının milli mənsubiyyətini və dilini inkar edir, onun fars əsilli xalq olduğunu, Səlcuqilər dövründə assimilyasiyaya uğrayaraq türkləşdiyi iddiasını irəli sürür və əslində linqusid ("genosid" anlayışının dilə aid analoqu: müəyyən bir dilin kökündən ləğv edilməsi) siyasəti yeridirdi. İran əhalisinin üçdə birini təşkil edən xalqın öz ana dilində

[1] AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun doktorantı

məktəbinin, mətbuatının olmaması, öz idarəsində, məhkəməsində fars dilini işlətməyə məcbur edilməsi, ölkənin ali qanunverici orqanında və dövlət təsisatlarında sayına görə təmsil olunmaması milli əsarətin bariz təzahürü idi. Milli istiqlal uğrunda bir neçə dəfə mübarizəyə qalxmış xalq məğlubiyyətə uğrasa da, inamını itirməmişdi.

1941-ci ilin avqustunda sovet qoşunları Cənubi Azərbaycanı və ölkənin digər şimal rayonlarını zəbt etdikdən sonra Azərbaycan xalqının müəyyən hissəsi milli əsarətdən xilas olmaq məqamının yetişdiyini düşünərək, mübarizəyə hazır idi və çoxəsrlik arzusunun gerçəkləşməsini milli muxtariyyət əldə etməkdə görürdü. Müstəqil dövlət quraraq sonradan Azərbaycan SSR-ə birləşmək ideyasının da tərəfdarları var idi. Mir Cəfər Pişəvəri dönə-dönə söyləyirdi ki, bu fürsəti əldən buraxsaq, tarix bizi heç zaman bağışlamaz.

Elmi ədəbiyyatdan məlumdur ki, 1945-ci ilin dekabrında Cənubi Azərbaycanda M. C. Pişəvərinin bəzən "inqilab", əsasən "qiyam" (8, 357, 358, 393 və s.), H. Həsənovun "demokratik çevriliş" (15, 556), C. Həsənlinin "hakimiyyətin zəbt edilməsi" (14, 202) adlandırdıqları silahlı dövlət çevrilişi ÜİK(b)P MK Siyasi Bürosunun "Cənubi Azərbaycanda və İranın digər şimal vilayətlərində separatist hərəkatın təşkil edilməsi tədbirləri haqqında" 6 iyul 1945-ci il tarixli qərarı ilə həyata keçirilmişdi. Bu qərarda İran dövlətinin tərkibində geniş hüquqları olan Azərbaycan Milli Muxtar Əyalətinin, separatist hərəkata rəhbərlik etmək üçün Azərbaycan Demokrat Partiyasının, həmçinin Kürdüstan Demokrat Partiyasının və Kürdüstan Muxtar Əyalətinin yaradılması nəzərdə tutulurdu. Həmin qərarla bu separatist hərəkatların tam maliyyələşdirilməsi tapşırığı da verilmişdi və artıq iyulun 20-dən icrasına başlanmışdı. Qərarın yerinə yetirilməsi və icrasına nəzarət Malenkov, Molotov, Beriya və Bağırova həvalə olunmuşdu.

Ən yeni tarixə nəzər salınsa, milli-azadlıq, yaxud demokratik hərəkatların məhz böyük dövlətlərin himayəsi ilə həyata keçirildiyini çoxlu faktlar təsdiq edir. Cənubi Azərbaycandakı hərəkat da istisnalıq təşkil etmirdi.

Sovet İttifaqı ÜİK(b)P MK Siyasi Bürosunun 6 iyul 1945-ci il tarixli qərarından əvvəl bütün beynəlxalq hüquq normalarını pozaraq, Cənubi Azərbaycanı öz ərazisi kimi idarə etməyə başlamışdı. İyunun 10-da Stalin "Şimali İranda sovet sənaye müəssisələrinin təşkili haqqında" SSRİ Nazirlər Sovetinin, iyunun 21-də "Şimali İranda neft geoloji-kəşfiyyat işlərinin aparılması haqqında" Dövlət Müdafiə Komitəsinin qərarlarını imzalamışdı.

Avqust ayından ÜİK(b)P MK Siyasi Bürosunun qərarında nəzərdə tutulan Azərbaycan Demokrat Partiyasının yaradılmasına hazırlıq işləri başlanmışdı. Sentyabrın 7-də Təbrizdə İran Xalq Partiyasının – Tudənin Azərbaycan əyalət təşkilatı öz konfransında bütün təşkilatla yeni yaradılacaq partiyanın tərkibinə daxil olmaq haqqında qərar qəbul etdi. Oktyabrın 2-də Təbrizdə Azərbaycan Demokrat Firqəsi adlandırılan partiyanın birinci təsis qurultayı oldu. Partiyaya sədr seçilmiş Pişəvərinin və onun silahdaşlarının rəhbərliyi altında Azərbaycan Milli Muxtar Vilayətinin yaradılması istiqamətində hərəkat başlandı.

Oktyabrın 8-də ÜİK(b)P MK Cənubi Azərbaycan məsələsini yenidən müzakirə edərək, 6 iyul 1945-ci il tarixli qərarına əlavələr etdi. ADF-nin əsas vəzifəsi kimi bir daha "İran dövlətinin tərkibində Azərbaycanın milli muxtariyyətinə nail olmaq" müəyyənləşdirilmişdi. Bu qərarda "silahlı dəstələr yaradılmasını sürətləndirmək" vəzifəsi qarşıya qoyulmuşdu və noyabrın əvvəllərindən yerli əhalidən silahlı dəstələr – fədailər (sovet sənədlərində "partizan" adlandırılırdılar, SSRİ - dən gələn vəsait hesabına aylıq haqq alırdılar) təşkil olunmağa başlandı, onlar SSRİ tərəfindən İranda istifadədə olan silahlarla silahlandırılırdı. Qərarda, həmçinin, "separatist" terminini işlətməmək tapşırılırdı (Bağırov da Stalinə məktublarında "separatist hərəkat" terminindən istifadə edirdi).

1945-ci ilin noyabr ayında Cənubi Azərbaycanın bütün əsas şəhərlərində çoxminli mitinq və yığıncaqlarda Azərbaycan Xalq Konqresinə seçkilər keçirildi. Xalqın hərəkata qoşulmuş hissəsi, ADF-nin on minlərlə üzvü, minlərlə fədai hərəkatın nə dərəcədə Moskvadan idarə olunması haqqında məlumata malik deyildi və ola da bilməzdi. Onların nəzərində hərəkatın ideya mənbəyi öz mühitlərində idi, öz inamlarından doğmuşdu. Buna görə də, hərəkatda iştirakları tam səmimi idi və milli istiqlal məqsədi güdürdü.

Noyabrın 20-də Təbrizdə işə başlayan konqresə nümayəndələrin təklifi ilə təsis qurultayı statusu verildi. Qurultay "Təsis qurultayının qətnaməsi", "İran şahına, məclisinə və hökumətinə bəyannamə", "Xalqa müraciət", "Milli Məclisə seçkilər haqqında əsasnamə" kimi mühüm sənədlər qəbul etdi. "Xalqa müraciət"də deyilirdi: "Azərbaycan xalqı İranın müstəqilliyini və bütövlüyünü pozmadan dünyanın başqa millətləri kimi Atlantika xartiyasının prinsipləri əsasında öz taleyini həll etməkdə özünü azad və səlahiyyətli hesab edir" (6). Milli Məclisə seçkilərin keçirilməsinədək və xalq hökumətinin təşkilinədək rəhbər orqan kimi Hacı Mirzə Əli Şəbüstərinin sədrliyi ilə Milli Komitə seçildi.Milli Komitənin qərarı ilə noyabrın 23-27-də Milli Məclisə seçkilər keçirildi.

Dekabrın 12-də (21 Azər) Azərbaycan MM-in birinci sessiyası açıldı. Pişəvərinin başçılığı ilə Azərbaycan Milli Hökuməti (AMH) təşkil olundu. Fədailərin ultimatumuna əsasən ordu, jandarmeriya, polis AMH-yə tabe oldu.

Milli hökumət siyasi, hüquqi (xüsusən məhkəmə), inzibati, ticarət, seçki, torpaq islahatları apardı. 1946-cı il yanvarın 6 - da Azərbaycan dili rəsmi dövlət dili elan olundu. Təhsil Azərbaycan dilində aparılmağa başlandı. Təbriz Dövlət Universiteti yaradıldı. Milli ordunun formalaşdırılmasına başlandı. Yanvarın 15-də MM Konstitusiya layihəsinin hazırlanması haqqında qərar qəbul etdi və s. Qeyd olunmalıdır ki, bütün mühüm sənədlər (ADF-nin nizamnaməsi və proqramı, MM-in nizamnaməsi, qanunlar və qərarlar) Bakıda, həmçinin Moskvada təshih edilərək təsdiqlənirdi.

ÜİK(b)P MK Siyasi Bürosunun 6 iyul 1945 - ci il tarixli qərarının İranda icrası davam edirdi. 1946-cı il yanvarın 22-də Məhabadda İranın tərkibində Kürdüstan muxtariyyəti elan olundu. Bundan ruhlanan Urmiya erməniləri də

Şimali İranda öz muxtar vilayətlərini yaratmaq planlarını cızmağa başladılar. İranın cənubunda üsyana qalxan tayfalar Azərbaycanda aparılmış islahatların onlara da şamil olunmasını tələb edirdilər.

İran unitar dövlətdən federativ dövlətə çevrilmək təhlükəsi qarşısında qalmışdı və əks tədbirlər görməyə başlamışdı. Fefralın 19-dan martın 8-dək Moskvada İranın baş naziri Əhməd Qəvamın başçılıq etdiyi nümayəndə heyəti ilə aparılan danışıqlar zamanı sovet tərəfinin ( İ. V.Stalin və V. M. Molotov) ciddi səyinə baxmayaraq, İran tərəfi (Qəvam) İran konstitusiyasına əsaslanaraq, Cənubi Azərbaycan muxtariyyətinin tanınmasının qeyri-mümkün olmasında israr elədi. Moskvadan yola düşərkən Stalinə göndərdiyi məxfi məktubda Qəvam bir daha yazırdı ki, "Azərbaycan problemi yalnız İranın suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə ən azacıq belə zərər vurmadan həll edilə bilər" (10, 222). Mart-iyun aylarında Moskva-Tehran, Tehran-Təbriz arasında aparılan danışıqlar (Bakı Moskva ilə Təbriz arasında vasitəçi rolunu oynayırdı) nəticəsində iyunun 13-də Təbrizdə İranın baş nazirinin müavini Müzəffər Firuz və Mir Cəfər Pişəvəri tərəfindən "Dövlət və Azərbaycan nümayəndələri arasında müqavilə" imzalandı. İyunun 14-də Azərbaycan Məclisinin rəyasət heyəti, 17 - də İran hökuməti müqaviləni təsdiq etdilər. Müqaviləyə əsasən Cənubi Azərbaycanda demokratik hərəkatın əldə etdiyi nailiyyətlər əsas etibarilə saxlanılır, idarəetmə forması dəyişirdi. Azərbaycan Milli Məclisi Azərbaycan Əyalət Əncüməninə çevrildi, Azərbaycan Milli Hökuməti əvəzinə Azərbaycan İdarə Şurası yaradıldı. Salamulla Cavid Azərbaycanın ostandarı oldu. Pişəvəri dövlət vəzifələrindən istefa verərək, ADF-nin sədri kimi fəaliyyətini davam etdirdi.

Sonrakı hadisələrdən 13 iyun müqaviləsinin İran hökuməti tərəfindən siyasi bir manevr olduğu aydınlaşdı. Məlum oldu ki, müqavilə Qəvam başda olmaqla İranın mürtəce dairələri üçün Azərbaycan üzərinə qəti hücuma keçməkdən ötrü vaxt qazanmaq vasitəsi imiş. Müqavilə təsdiqlənəndən sonra onun yerinə yetirilməsi üçün praktik addımlar atılacağını vəd edən İran hökuməti bu istiqamətdə heç bir iş görmürdü. Azərbaycan ordusunun, jandarmeriyasının və bankının məsələləri tənzimlənmirdi. Tehran Azərbaycan ordusunun saxlanması üçün vəsait ayırmırdı, bu isə onun zəifləməsinə səbəb olurdu. Qəvam Azərbaycanı iqtisadi blokadaya salmaq siyasətini yeridirdi. O, Təbrizdə milli bankın bağlanmasına təkid edirdi. Azərbaycana hər cəhətdən təzyiq göstərilirdi. Eyni zamanda, Qəzvindən Astarayadək Azərbaycanın bütün sərhədi boyu İran qarnizonları möhkəmləndirilirdi.

Noyabrın 21-də Qəvam elan etdi ki, İran Milli Məclisinə dekabrın 7-ə təyin olunmuş seçkilər zamanı qayda-qanunu təmin etmək məqsədilə istisnasız olaraq ölkənin bütün vilayətlərində qoşun hissələri – "əmniyyət qüvvələri" yerləşdiriləcəkdir və bu barədə Təbrizə teleqram göndərildi. Həmin gün Pişəvəri başda olmaqla Azərbaycan rəhbərləri Qəvamın teleqramını müzakirə edib, Azərbaycana qoşun yeridilməsinin qəti əleyhinə çıxdılar və Tehrana bu məzmunda teleqram göndərdilər. Qoşun yeridiləcəyi təqdirdə müqavimət

göstərmək qərara alındı. Noyabrın 27- də Qəvam Cavidə göndərdiyi teleqramda qoşun yeritməyə qərarlı olduğunu bir daha bildirdi. Noyabrın 28-də Moskva İran hökumətinə müqavimət göstərməyi tövsiyə etdi.

İran ordusu bütün hazırlıq işlərini görəndən sonra dekabrın 4-də Azərbaycana hücum etdi. Silah-sursatı alınaraq Sovet Azərbaycanına aparılmış Azərbaycan ordusu İran ordusuna müqavimət göstərmək iqtidarında deyildi. Azərbaycan rəhbərləri Bağırov vasitəsilə Moskvadan dəfələrlə onlara hərbi yardım göstərməyi xahiş etsələr də, sovet rəhbərləri bundan qəti imtina etdilər. Moskva mətbuatında Azərbaycandakı böhran İranın sırf daxili işi kimi şərh olunurdu.

Dekabrın 11- də İran ordusuna bundan sonra silahlı müqavimət göstərməyin məqsədəuyğun olmadığı və hökumət qoşunlarının Azərbaycana daxil olmasına etiraz etməmək haqqında Stalinin göstərişi Pişəvəri başda olmaqla Azərbaycan rəhbərlərinə çatdırıldı. Həmin gün Azərbaycan Əyalət Əncüməni müqavimətin dayandırılması və İran qoşunlarının Azərbaycana buraxılması haqqında qərar qəbul etdi və Qəvama göndərdi. ADF rəhbərliyi ilə Azərbaycan üçlüyünün keçirdiyi fövqəladə iclasın qərarına əsasən Pişəvəri ADF sədri vəzifəsindən istefa verdi və Məhəmməd Biriya partiyanın müvəqqəti sədri təyin olundu.

Dekabrın 14-də İran qoşunları Təbrizə daxil oldular. Əvvəlcədən yaradılmış hərbi-səhra məhkəməsi fəaliyyətə başladı. Bir neçə gün ərzində üç mindən çox adam edam edildi və güllələndi. Minlərlə insan həbsxanalara salındı. Cənubi Azərbaycanın hər yerində hərəkat iştirakçılarına və onların ailə üzvlərinə orta əsrlər sayağı işgəncələr verildi, qanlı divan tutuldu. İranın cənub əyalətlərinə sürgün edilən 8 min azərbaycanlı aclıqdan və xəstəlikdən həlak oldu. Son nəticədə, qətlə yetirilənlərin sayı 30 mindən çox idi. Dekabrın 20 də İran ordusu bütün Azərbaycanı tutdu.

Cənubi Azərbaycan xalqının növbəti istiqlal mübarizəsi milli qurtuluşa yox, milli faciəyə gətirib çıxardı. Məğlubiyyətin siyasi və geosiyasi səbəbləri vardı.

**Siyasi səbəblər**

Tarixi hadisələrin və siyasi proseslərin obyektiv tədqiqi göstərir ki, böyük zəka sahibi, səriştəli təşkilatçı rəhbər olan Pişəvəri və silahdaşları tapındıqları əqidə və amal uğrunda əzmlə mübarizə apararaq, qısa ömürlü olsa da (xatirə yazan mühacirlərin təbirincə obrazlı olaraq “tez açılıb solan çiçək”), xalqı milli müstəqillik yoluna çıxaran dövlət qurmaqla yanaşı, səhvlərə də yol verirdilər ki, dünya siyasətinin ən mürəkkəb dövründə ağır və ziddiyyətli dolanbaclardan keçən hərəkatı onlarsız təsəvvür etmək, bəlkə də, qeyri-mümkün olardı. Hərçənd ki, obyektiv şərtlərlə bərabər subyektiv amillər də özünü göstərirdi.

Hərəkatı təşkil edən qüvvələr barədə rəsmi bəyanatlar reallığı tam əks etdirmirdi. Əsrlərlə şah rejimindən əlavə yerli mülkədarların da əsarəti altında

əzilən və əsas etibarilə savadsız kəndli sinfindən ibarət olan Cənubi Azərbaycan əhalisinin heç də hamısı hərəkatı dəstəkləmədiyi halda, hərəkat liderlərinin "xalq" adından sovet postulatına uyğun istifadə edərək, onun vahid kütlə kimi demokratik hərəkata qeyd-şərtsiz tərəfdar olduğunu iddia etməsi əsaslı deyildi ("Bütün xalq bizim arxamızdadır", "Azərbaycan milləti yaşamaq üçün ölməyə hazırlanmışdır" və s.) Hərəkatın fəal iştirakçılarından olmuş Ə. Haşimi yazır ki, "Azərbaycan Demokrat Firqəsinin məramnaməsində İranın sərhədləri daxilində Azərbaycana milli və mədəni muxtariyyət verilməsi tələbinin düzgün qoyulması cəmiyyətin *əksər* (*kursiv bizimdir* – **X. B.)** zümrə və təbəqələrinin arzularına cavab verirdi" (5, 36).1944-cü ilin may ayında Pişəvəri özü deyirdi ki, "Cənubi Azərbaycanda kəndlilər yoxsul və məzlumdurlar. Onlar demokratik hərəkatda fəal iştirak etmirlər" (15, 23).

Xatirə ədəbiyyatından yaşlı nəsillə gənc nəslin hərəkata münasibətinin fərqli olduğu görünür. Bəzi atalar övladlarını hərəkata qoşulmaqdan çəkindirərək, rusların onlara axıradək arxa durmayacaqlarını söyləyirdilər. Evinin talan edilib dağıdılacağını uzaqgörənliklə duyan bəzi atalar bunun qarşısını almaq üçün fədai övladlarından öz ailələrini ata mülkündən çıxarmağı tələb edirdilər. Hərəkat iştirakçılarının, o cümlədən ADF üzvlərinin, əsas etibarilə, gənclərdən ibarət olması da deyilənləri təsdiq edir.

Milli hökumət tərəfindən həyata keçirilən aqrar islahatı ziddiyyətli xarakter daşıyırdı. Dövlət torpaqları, həmçinin, milli hökumətin əleyhinə çıxan mülkədarların torpaqları müsadirə edilərək kəndlilərə paylansa da, torpaq üzərində ali mülkiyyət hüququ hökumətə məxsus idi. Kəndlilərə verilmiş torpaqları onların satmaq, başqasına və ya icarəyə vermək hüququ yox idi. Hərəkata loyal münasibət göstərən mülkədarların torpaqlarına toxunulmaması kəndlərin bir hissəsinin torpaq islahatından kənarda qalması demək idi ki, bunun da dövlətçilik baxımından məntiqi izahı yox idi. 1946-cı ildə Əyalət Əncüməninin kəndlilərdən dövlət vergisindən əlavə mülkədar bəhrəsi toplanması haqqındakı qərarı da narazılıq doğurmuşdu.

Əsnaf və yüngül sənaye işçilərindən ibarət olan azsaylı və siyasi şüurca yetkinləşməmiş fəhlə sinfi hərəkatın aparıcı qüvvəsi olmaq iqtidarında deyildi. 1945-ci ilin sonunda ADF-nin 70 min nəfər üzvündən yalnız 6 mini fəhlə sinfinin nümayəndəsi idi. Mitinqlər zamanı kütlə psixologiyasının təsiri ilə özünü büruzə verən zahiri birlik keçici xarakter daşıyırdı.

Cənubi Azərbaycan əhalisi sovet qoşunlarının İranın şimalını işğal etməsinə birmənalı münasibət bəsləməmişdi. Politoloq Vilen Lyuleçnik "İkinci dünya müharibəsinin unudulmuş səhifələri: Sovet İttifaqı ilə Böyük Britaniya 1941-ci ildə İranı necə işğal etdilər" adlı məqaləsində sovet qoşunlarının tərkibində İranda olmuş zabitlərlə söhbətlərinə istinad edərək, "əhalinin bir hissəsinin sovet qoşunlarına düşmən münasibəti bəslədiyindən" yazır (18). Sovet qoşunları Cənubi Azərbaycana girəndə yalnız mülkədarlar və sərvət sahibləri deyil, az-çox varlı olanlar da Cənubi Azərbaycanı tərk edərək, milli

hökumətin potensial düşmənlərinə çevrilmişdilər. Ziyalıların bir hissəsi xalqın istiqlal mübarizəsi tarixini bildiklərinə görə Sovet İttifaqına inanmırdılar.

Cənubi Azərbaycanın perspektivdə Azərbaycan SSR-lə birləşməsinə də münasibət birmənalı deyildi. Milli hökumətin 21 Azər hərəkatının gedişində kəndlilərə payladığı torpaqların Azərbaycan SSR-lə birləşəcəkləri təqdirdə onlardan alınaraq kollektiv təsərrüfata qatılacağı məlum idi. Otuz səkkizinci ildə zorla İrana köçürülmüş on minlərlə adam sovet rejiminin iç üzünə yaxşı bələd idi, 37-ci ilin müdhiş repressiyaları onların gözləri önündə baş vermişdi və özləri də hər cür haqsızlıqlara məruz qalmışdılar. Azərbaycan SSR-in yüzlərlə vətəndaşının onlarla qohumluq əlaqələrinə görə təqib olunduqlarından xəbərdar idilər. Bütün bunlar həmin insanlara Azərbaycan SSR-ə mənfi münasibət bəsləməyə (onların arasında İrana yeridilmiş sovet casuslarından başqa) əsas verirdi.

Nəhayət, din amilinin rolu qeyd olunmalıdır. Cənublular Azərbaycan SSR-də zor gücünə allahsızlar cəmiyyətinin yaranması, məscidlərin sökülməsi, din xadimlərinin məhv edilməsi, quran və dini kitabların yasaq olunması barədə məlumata malik idilər, İrana köçürülənlər isə bunun şahidi olmuşdular. 1944-cü ilin martında Bakıda Qafqaz Müsəlmanları Ruhani İdarəsinin açılması da əksəriyyət tərəfindən şübhə ilə qarşılanmışdı. ADf-nin nizamnaməsində dini azadlıq elan edildiyi halda, hərəkat rəhbərlərinə dini inam yasaq edilmişdi. Dindarlığında davam edəcəyi təqdirdə nazir vəzifəsindən çıxarılacağı ilə hədələnən Biriya ibadət etməyi tərgitmişdi (15, 500). Belə faktlar əhalidən gizli qala bilməzdi.

Demokratik hərəkata rəhbərlik etmək üçün yaradılmış Azərbaycan Demokrat Firqəsi mütərəqqi qüvvələri vahid cəbhədə birləşdirməklə yanaşı İranın unitar dövlət quruluşunun ləğvinə aparan siyasi xəttinə görə ölkənin bir sıra siyasi qüvvələrini, hətta İran Xalq Partiyasını (Tudəni) özünün əleyhdarına çevirmişdi. Bu istiqamətdə Moskva Tudə rəhbərliyinə güclü təzyiq göstərirdi. Azərbaycan Demokrat Firqəsi nə ÜİK(b)P MK, nə də başqa kommunist və fəhlə partiyaları tərəfindən rəsmən tanınmamışdı (1).

Siyasi mübarizədə qüvvələr nisbətinin düzgün müəyyənləşdirilməsi və nəzərə alınması kimi zəruri amili sərf-nəzər edən Azərbaycan liderləri İranın bir dövlət kimi hərəkata qarşı beynəlxalq hüquq prinsiplərinə əsaslanan ciddi arqumentlər qoya biləcəyini nəzərə almırdılar. İran dövlətinin əks tədbirlərini irəlicədən görüb, siyasi manevrlər etmək əvəzinə Pişəvəri Tehranda əyləşənləri dönə-dönə “axmaq” adlandırırdı: “Tehranın əhməqanə sözlərinə etina etmədən tutduğumuz yol ilə irəli getməkdəyik” (8, 358, 359 və s.).

Hərəkat aydın düşünülmüş və ardıcıl həyata keçirilən taktika və strategiyaya malik deyildi. Hərəkatın idarə olunmasında Moskva, Bakı və Təbriz arasında ziddiyyətlər mövcud idi. Moskva müəyyən dövrdə hərəkatın qələbə qazanacağına əmin olmayaraq, prosesi əslində dayandırmışdı. 1941-ci ilin sentyabrından başlayaraq Sovet Azərbaycanından Cənubi Azərbaycana göndərilən və 1942-ci ilin martında sayı minə çatan müxtəlif peşə sahibləri

geniş miqyaslı siyasi və mədəni iş aparandan sonra Beriyanın Bağırova teleqramına (30 mart 1942-ci il) əsasən geri çağırılmışdı – həmin ilin ortasında Cənubi Azərbaycanda cəmi 84 nəfər qalmışdı. Azərbaycan dilində çıxan qəzetlər bağlanmışdı.

SSRİ-nin Cənubi Azərbaycana münasibətdə siyasəti tədricən 1944-cü ildə dəyişməyə başlamışdı. Zəbt olunmuş torpaqların almanlardan azad edilməsi və Sovet Ordusunun Avropa ölkələrinin sərhədlərinə çıxması Sovet İttifaqının ekspansionist cəhdlərini qızışdırmışdı. Amerika və İngiltərə neft şirkətlərinin İrandakı fəaliyyəti də Sovet rəhbərliyini İranın şimalındakı neft yataqlarını ələ keçirməyə təhrik edirdi. İrandakı sovet qoşunları hissələrində, diplomatik təsisatlarda, ticarət nümayəndəliklərində çalışmaq üçün Azərbaycan SSR-dən Cənubi Azərbaycana yenidən 620 nəfərdən çox müxtəlif profilli mütəxəssis göndərilmiş, Azərbaycan dilində qəzet və kitabların nəşri bərpa edilmişdi və proses Azərbaycan muxtariyyətinin elan olunmasına gətirib çıxarmışdı.

Cənubi Azərbaycandakı hərəkata bilavasitə rəhbərlik Moskvanın, əsas etibarilə, Bakıdan irəli sürülən təkliflərə əsaslanan direktivləri əsasında M. C. Bağırovun rəhbərliyi ilə həyata keçirilirdi. Təbrizdə icra orqanı kimi ÜİK(b)P MK Siyasi Bürosunun təsdiq etdiyi "üçlük" – M. İbrahimov (rəhbər), H.Həsənov və A. Atakişiyev fəaliyyət göstərirdilər. Ölkədə dövlət hakimiyyəti funksiyasını yerinə yetirən ÜİK(b)P MK və onun Siyasi Bürosunun bəzi məqamlarda tərəddüd etdiyi və bir sıra qərarları M. C. Bağırovun təkidi və çoxsaylı müraciətlərinin təsiri ilə qəbul etdiyi qeyd olunmalıdır. Bu prosesdə sovet idarə üsulu, Stalin rejimi üçün yolverilməz, qeyri-adi hesab edilə biləcək və analoqu olmayan təzahür baş vermişdi – M. C. Bağırov bir dövlət xadimi kimi Moskvadan fərqli siyasət yeridirdi. O, Qərbi Ukrayna və Qərbi Belorusiyaya aid variantın Cənubi Azərbaycan üçün də gerçəkləşdirilməsi vaxtının çatdığını düşünürdü. 1941-ci il sentyabrın 15-də Azərbaycan KP MK-da Cənubi Azərbaycana göndərilən ilk qrupun qarşısında çıxış edərkən Sovet İttifaqı rəhbərliyinin nəinki heç bir yazılı, hətta şifahi göstərişinə əsaslanmayan, əksinə, həmin vaxtadək SSRİ ilə İran arasındakı nota mübadilələrində əksini tapmış hüquqi təəhhüdlərə zidd olan belə proqram irəli sürmüşdü: "Əgər bizdə bir damla azərbaycanlı qanı qalıbsa, nə zamansa zorla bir-birindən ayrılmış xalqın birləşməsinə nail olmalıyıq... Bunun üçün bizim gücümüz və bacarığımız vardır... Siz bu vəzifənin öhdəsindən gəlsəniz, bu, Azərbaycan xalqının qarşısında böyük xidmətiniz olacaqdır. Əgər siz bu vəzifənin öhdəsindən gəlsəniz, iki yerə bölünmüş xalqın yüzillik arzusunu yerinə yetirmiş olacaqsınız. Bu, vicdan, sədaqət və sevgi məsələsidir" (14, 25-26). M. C. Bağırov bu siyasəti ardıcıl yeritmişdi. 1945-ci il dekabrın 31-də Təbrizə göndərdiyi məktubda ADF-yə "dünya ictimai rəyini nə istədiyimizə - muxtariyyət, yaxud ayrılmaq istədiyimizə hazırlamağı" (14, 203) tövsiyə edirdi.

Pişəvəri Bağırovla bu məsələdə əvvəldən həmrəy idi və o da sonadək bu ideyaya sadiq qalmışdı. 1945-ci il dekabrın 23-də "Azərbaycan" qəzetində çap etdirdiyi məqaləsində yazırdı ki, "Biz İran istiqlal və tamamiyyətinə dəfələrlə

etiraf etmişik. Tehran isə bu istiqlaliyyəti pozmaq yolunda hər gün təzə fırıldaq çıxarır. İş belə gedirsə, biz tamamilə ayrılıb müstəqil bir dövlət təşkil etməyə məcbur olacayıq" (1, 359). Həmin gün Pişəvəri başda olmaqla ADF liderləri tərəfindən Bağırova göndərilmiş məktubda yazılmışdı: "Hələ üç il əvvəl böyük demokratik dövlətlər tərəfindən imzalanmış Atlantika xartiyası (*Atlantika xartiyası 1941-ci il avqustun 14-də imzalanmışdı* – **X. B.**) Azərbaycan xalqına da müstəqil yaşamaq hüququ vermişdir. Biz hesab edirik ki, beş milyonluq Azərbaycan xalqının hüququnu müdafiə etmək üçün indiki şəraitə uyğun olaraq Azərbaycanda müstəqil demokratik respublika hökuməti qurmaq zəruridir. Buna görə də, Azərbaycan xalqına müstəqil milli dövlət qurmaqda öz qanuni hüquqlarından istifadə etməyə icazə verməklə yanaşı, sizdən xahiş edirik ki, xalqımızın müqəddəs arzusunun – yaxın gələcəkdə iki qardaş respublikanın birləşməsi arzusunun gerçəkləşməsi üçün bizə kömək göstərib şərait yaradasınız" (8, 198).

1946-cı il yanvarın 16-da Pişəvəri başda olmaqla Milli hökumətin liderləri tərəfindən imzalanmış "Azərbaycan xalqının tələbləri" adlı sənəddə də İrandan tamamilə ayrılaraq demokratik əsaslarda müstəqil dövlət – Azərbaycan Milli-Demokratik Respublikası yaratmaq ideyası təsbit olunmuşdu.

Pişəvəri radikal siyasətində daha da ifrata vararaq, hərəkatı bütün İrana yaymaqla Tehranı hədələyirdi. 1946-cı ilin fevral ayındakı kiçik bir nitqində Pişəvəri dönə-dönə deyirdi: "Amma əgər Tehran mürtəce hökuməti istəsə Azərbaycan azadlığını boğa, onda Azərbaycan xalqı o hökuməti əzib, Tehranda Azərbaycanı tanımağa yarar bir hökumət yaratmağa çalışacaqdır"; "Biz özümüz məcburuq Tehrana gedək, oranı alaq, azad demokrat bir hökumət quraq və öz xalqımızın milli azadlığını bu yol ilə təmin edək"; "Ya gərək Tehran hökuməti azadlıq yolu ilə gedə və bizim azadlığımıza mane olmaya, əgər getməsə biz onunla getməyəcəyik və əgər mümkün olmasa, onu yıxıb yerinə bir demokrat rejim yaradacağıq"; "Yeri gələrsə, Tehrana gedib azadlıq əleyhinə mübarizə edən irticanın ocağını dağıdaq. Tehranlılar üçün də demokratik hökumət quraq" (8, 369-372). Pişəvəri bundan əvvəl və sonra da Sovet hökumətindən bir neçə dəfə Tehrana hücum etməyə icazə istəmişdi. Azərbaycan liderləri real hərbi qüvvələr nisbətinə əsaslanmayan bu ideyanı sonuncu dəfə 1946-cı ilin noyabr ayında Qəvam Azərbaycana qoşun yeridəcəyini elan edəndən sonra Bağırova göndərdikləri məktubda ifadə edərək, silahlı toqquşma baş verərsə, Tehrana qalib gələcəklərini bildirmişdilər.

Moskvada müəyyənləşdirilmiş milli muxtariyyət ideyasının Bakıda müstəqil dövlət və Azərbaycan SSR-lə birləşmək ideyasına, Təbrizdə Tehranı da tutmaqla bütün İran üçün azadlıq ideyasına transformasiyası hərəkatın əleyhinə çevrilmişdi.

Hərəkatın gedişində elan olunmuş demokratik cəmiyyət quruculuğu yolunda antidemokratik üsullardan istifadə edilmişdi. Yeni qurumlar bəzən qanunçuluğa riayət etmir, özbaşınalığa yol verirdilər. ADF yerli özəkləri sədrlərinin öz səlahiyyətlərini aşması o həddə çatmışdı ki, Pişəvərinin öz müdaxiləsinə ehtiyac

yaranmışdı. “Azərbaycan” qəzetində çap etdirdiyi “Ayı dostluğu” adlı məqaləsində yazırdı: “Məxsusən kəndlərdə firqə sözü çox pis təəbir edilir. Onun başında duranlar çox yerdə dövlət idarələrini mənimsəyib, hətta bəzi yerlərdə firqə məsulları öz vəzifəsini unudub, dehbar (kənd sahibi), kəndxudalar, məhkəmələr kimi və qanuni idarələrin işlərinə qarışmaq firqə rəhbərlərinə yaraşan işlərdən deyildir” (9, 97-98). Fədailər bəzi şəhər və kəndlərdə qanunsuzluğa yol verir, repressiya tədbirləri həyata keçirir, mal-mülk müsadirə edir, mühakiməsiz divan tutur, məhkəməsiz cəza verir, edam edir, mülkədarları, jandarm başçılarını qətlə yetirir, “günahsız insanları öldürürdülər” (15, 402). Həmkarlar ittifaqlarına başçılıq edən Biriya həmkarlar ittifaqının səlahiyyətləri ilə bir araya sığmayan hərəkətlərə yol verir, adamları təhdid edir, həbsə alır, sürgünə göndərirdi (15, 255). Dekabrın 12-də hakimiyyəti ələ alandan sonra üç gün ərzində fəaliyyət göstərən hərbi-səhra məhkəmələri tərəfindən hərəkata düşmən hesab edilənlər güllələnmişdi. Bu qanunsuz hərəkətlərin uzun illər ərzində cənubi azərbaycanlıların məruz qaldıqları haqsızlıq və zülm müqabilində qisas və intiqam hisslərindən doğduğu bəlli olsa da, bu, bəraətə əsas vermirdi və demokratik hərəkatın, milli hökumətin nüfuzuna ciddi zərbə idi.

1946-cı il aprelin əvvəlində Sovet Azərbaycanının nümayəndələri ilə görüşündə Pişəvəri bildirmişdi: “ Siz gedən kimi Qəvam dərhal demokratik qüvvələrlə və onların rəhbərləri ilə haqq-hesabı çürüdəcək. Bunda ən əvvəl müvəqqəti hökumətin və fədailərin təqib etdiyi, əmlakını müsadirə etdiyi mülkədar və xanların mürtəce hissəsi fəal iştirak edəcək. Hökumət və fədailər tərəfindən öldürülənlərin qohumları demokratları və onların ailələrini mühakimə edəcək və onlarla elə haqq-hesab çürüdəcəklər ki, tarix bu qanlı qırğını heç vaxt unutmayacaq” (14, 311). Həmin günlərdə yenə söyləmişdi: “Biz inqilab etdik, öz dövlətimizi qurduq, İranın mərkəzi hakimiyyətinə qarşı iş apardıq; İran konstitusiyası nöqteyi-nəzərindən biz cinayət etdik və indiki İran hökuməti bunu bizə bağışlamayacaq. Biz hamımız edam olunmağa məhkumuq” (15, 527). Pişəvərinin düşündüyü kimi də olmuşdu. Azərbaycana hücum edən ordunun önündə mülkədarların və sərvət sahiblərinin silahlı dəstələri gəlir və demokratlara, fədailərə, onların ailə üzvlərinə divan tuturdular. Hadisələrin şahidi olmuş Ə. Lahrudi “Xatirələr və mülahizələr” adlı kitabında yazır: “İrticaçı böyük bandalar və cinayətkarlar ordunun ön sıralarında Azərbaycana tərəf hərəkətdə idilər. Tehran qəzetləri və radioları onları “mihən pərəstan-e İrani” (İranlı vətənsevərlər) adlandırırdı. Onlara başçılıq edənlər hərbi formalarını dəyişdirmiş zabitlər idilər və ordudakı kimi silahlanmışdılar. Bunların vəzifəsi ordunun Azərbaycana daxil olmasından əvvəl oradakı demokratları aradan götürmək və Azərbaycan ərazisinə şahın “zəfərmənd” ( zəfərli) ordusunun daha təmtəraqlı şəkildə girməsi üçün uyğun şərait yaratmaq idi” (26, 282).

İran hökuməti Azərbaycana qoşun yeritmək istədiyi zaman milli hökumətin silahlı müqavimət göstərmək haqqındakı qəti qərarı faciəvi səhv idi. Yuxarıda

qeyd olunduğu kimi, bunu Moskva da onlara tövsiyə etmişdi. Lakin elə 12 gün sonra Pişəvəri və silahdaşları Moskvadan – Stalindən müqaviməti dayandırmaq, İran qoşunlarını Azərbaycana buraxmaq haqqında göstəriş aldılar və icra etdilər. Milli hökumət silahlı müqavimət göstərməsəydi belə, Qəvamın demokratlara divan tutacağı bəlli idi. Lakin silahlı müqavimət göstərilməyəcəyi təqdirdə faciənin miqyasının fərqli olacağı və dünya ictimai rəyinin başqa cür formalaşacağı aydındır.

Hərəkat rəhbərlərinin qərar qəbul edərkən İran kəşfiyyatının təsirinə məruz qalmalarını istisna etmək doğru olmazdı və bunun hərəkatı daxildən sarsıdan əsas səbəb olması ehtimalı da sərf-nəzər oluna bilməz. Ümumiyyətlə, analoji siyasi şəraitdə hər hansı bir mərkəzi hökumətin hərəkata casus yeritməyəcəyini düşünmək sadəlövhlük olardı. Hərəkatın məğlubiyyətindən sonra Azərbaycan Dövlət Təhlükəsizlik Nazirıiyi, hətta, Cavid və Şəbüstərinin İran hökumətinin casusları olduğu və eyni zamanda İngiltərə kəşfiyyatına işlədikləri nəticəsinə gəlmiş, bu barədə Azərbaycan K(b)P MK-ya və ÜİK(b)P MK-ya məlumat verilmişdi (2). Hərəkatı daxildən sarsıdan səbəblərdən biri də onun rəhbərləri arasında ciddi ixtilafın olması idi və bunun, şəxsi xüsusiyyətləri də istisna etmədən, İran kəşfiyyatı tərəfindən törədildiyini ehtimal etməyə əsas vardır. Moskva, əsasən də Azərbaycan rəhbərliyi onları dəfələrlə hərəkatın mənafeyi naminə birliyə çağırsa da, münaqişələr aradan qalxmırdı. Digər səbəb "hərəkatın yüksəlişi dövründə ADF sıralarına inqilabı sevdiklərinə görə deyil, partiya üzvlüyündən şəxsi mənafeləri üçün istifadə etməkdən ötrü daxil olmuş adamların da kifayət qədər idi (3).

Bu və digər siyasi səbəblər hərəkata mənfi təsir göstərsə də, məğlubiyyətinin əsasında geosiyasi amillər dururdu.

### Geosiyasi səbəblər

Geosiyasi səbəbləri şərtləndirən mühüm amillər İranın yerləşdiyi coğrafi məkan və təbii sərvətləri ilə əlaqədar idi. Cənub-şərqi Asiyaya, həmçinin Hindistana ənənəvi aşırım İrandan keçirdi. İran Sovet İttifaqı ilə böyük bir ərazi boyunca həmsərhəd idi və bu strateji mövqeyi ilə SSRİ-yə qarşı hər hansı bir müharibədə mühüm əhəmiyyət kəsb edirdi. İranda hərbi sənayedə istifadə olunan pambıq yetişdirilirdi (SSRİ ilə müharibəyə qədər Almaniyanı bu xammalla təchiz edirdi). İran, ən əsası, zəngin neft yataqlarına malik idi; ABŞ mütəxəssisləri tərəfindən təkcə Tehranın 800 km-lik radiusunda 33 milyard barel neftin olduğu müəyyənləşdirilmişdi ki, bu da dünya neft ehtiyatının təxminən yarısını təşkil edirdi. Müharibə dövründə İngiltərənin baş naziri olmuş U. Çörçill yazırdı: "İranın neft mədənləri mühüm hərbi amil idi (23, 221). 1943-cü ilin sonundan müttəfiqlər – ABŞ və İngiltərə şirkətləri İranın cənubunda, SSRİ ölkənin şimalında geoloji kəşfiyyat işləri apararaq, zəngin neft yataqları aşkar etmiş və İrandan neft konsessiyası almaq uğrunda mübarizə başlanmışdı.

ABŞ SSRİ-nin İran neftinə yiyələnməsinə İngiltərə ilə birlikdə hər vasitə ilə mane olurdu.

1941-ci ilin avqustunda müttəfiqlər tərəfindən İrandan çıxarılanadək İranda Almaniya güclü mövqeyə malik idi. Müharibədən sonra ölkənin kimin nüfuz dairəsində olacağı üstündə də müttəfiqlər arasında gizli mübarizə gedirdi. Təcridçilik siyasətinə son qoyaraq Avropa və dünya məsələlərinin həllinə təsir göstərməyə başlayan ABŞ İranda möhkəmlənməyi, eyni zamanda, ənənəvi müttəfiqi İngiltərənin də İranda nüfuz dairəsini tədricən məhdudlaşdırmağı özünün strateji vəzifəsi hesab edirdi. SSRİ də həmsərhəd dövlətin kapitalist ölkələrindən ibarət blokun təsiri altında olmasını təhlükəsizliyinə qəsd kimi qiymətləndirir və İranda, xüsusən ölkənin şimal-qərbində öz nüfuz dairəsini genişləndirməyə və möhkəmləndirməyə çalışırdı.

Geosiyasi amillər sırasında ən əvvəl İranın öz dövlət müstəqilliyini və ərazi bütövlüyünü qoruyub saxlamaq baxımından beynəlxalq aləmdə əlverişli hüquqi və siyasi mövqeyə malik olması qeyd edilməlidir. Bu mövqe ingilis və sovet qoşunları İranı zəbt edəndən dərhal sonra SSRİ-nin beynəlxalq hüquq normalarına riayət edəcəyinə nə İranda, nə də Sovet İttifaqının Qərb müttəfiqlərində əminlik olmadığına görə İranın səyləri və İngiltərənin, daha sonra ABŞ-ın yardımı ilə formalaşmışdı.

İrana müttəfiqlərin qoşunları yeridiləndən sonra İngiltərə İranın dövlət müstəqilliyi və ərazi bütövlüyünə təminat verən bəyanatla çıxış edəndən sonra SSRİ hökuməti də 30 avqust 1941-ci il tarixli notasında öz üzərinə belə bir təəhhüd götürməyə məcbur olmuşdu ki, “Böyük Britaniya hökuməti kimi Sovet hökumətinin də İranın müstəqilliyi, yaxud ərazi bütövlüyü əleyhinə heç bir niyyəti yoxdur” (17, 29).

1941-ci ilin dekabrında İran Xalq Partiyası – Tudənin fəaliyyətə başlamasına icazə verməsi müqabilində İran hökuməti İranın ərazi bütövlüyünə SSRİ-dən bir daha təminat almışdı.

1942-ci il yanvarın 29-da İngiltərə, Sovet İttifaqı və İran arasında “Sovet Sosialist Respublikaları İttifaqı, Böyük Britaniya və İran arasında ittifaq haqqında” bağlanmış üçtərəfli müqavilə həmin dövlətlərin İranla bərabərhüquqlu suveren münasibətlərini və İranın müharibədən sonra digər sülhsevər millətlərlə birlikdə beynəlxalq sülh, təhlükəsizlik və tərəqqinin bərqərar olunmasında iştirakını təsbit edirdi. Müqavilənin 1-ci maddəsində göstərilirdi ki, “Müttəfiq dövlətlər (SSRİ və Böyük Britaniya) birlikdə və ayrılıqda İranın ərazi bütövlüyünə, suverenliyinə və siyasi müstəqilliyinə hörmətlə yanaşmağı öhdələrinə götürürlər” (12, 191).

1943-cü il sentyabrın 9-da İran Almaniyaya müharibə elan edəndən sonra hərbi əməliyyatlarda iştirak etməsə belə, de-yure antifaşist koalisiyası dövlətləri sırasına qoşulmuşdu.

Üç müttəfiq dövlət başçılarının Tehran konfransında Ruzvelt, Stalin və Çör-çill öz aralarında və İranın baş naziri Mirzə Əli Süheyli ilə məsləhətləşəndən sonra 1943-cü il dekabrın 1-də Tehranda imzaladıqları “Üç dövlətin İran haq-

qında bəyannaməsi”ndə üçtərəfli müqavilədəki öhdəliklər bir daha təsdiq olunmuşdu: “Birləşmiş Ştatlar, SSRİ və Birləşmiş Krallığın hökumətləri İran hökumətinin İranın tam müstəqilliyini, suverenliyini və ərazi toxunulmazlığını saxlamaq arzusunda onunla həmrəydirlər. Onlar belə nəticəyə gəlirlər ki, İran hər dörd hökumətin imzaladığı Atlantika xartiyasının prinsiplərinə müvafiq olaraq digər sülhpərvər millətlərlə birlikdə müharibədən sonra beynəlxalq sülhün, təhlükəsizliyin və tərəqqinin bərqərar olmasında iştirak edəcəkdir” (21, 158).

1945-ci il iyulun 21-də Potsdam konfransında SSRİ və ABŞ nümayəndə heyətlərinə təqdim olunmuş “İrandan müttəfiq qoşunlarının çıxarılması haqqında Böyük Britaniya nümayəndə heyətinin memorandumu” müzakirə edilərkən Stalin bildirmişdi ki, ”Bizim qoşunlarımız tərəfindən İrana qarşı heç bir hərəkət olmayacaqdır.”(22, 166) Nəhayət, 1946-cı ilin yayında İkinci dünya müharibəsində qalib gəlmiş antihitler koalisiyası dövlətləri ilə faşist Almaniyasının Avropadakı keçmiş müttəfiqləri arasında sülh müqavilələri layihələrinə baxılması üçün çağırılmış Paris sülh konfransında (29 iyul-15 oktyabr) İrana öz hökumətinin bu müqavilələr haqqında mövqeyini şərh etmək imkanı verilmişdi.

Azərbaycan Milli Hökuməti beynəlxalq dəstəkdən məhrum idi. Pişəvəri dönə-dönə və 1946-cı il yanvarın 28-də Azərbaycan məsələsinin BMT-nin Təhlükəsizlik Şurasında müzakirə olunacağı bilinəndə Azərbaycan xalqı adından BMT-nin Baş Məclisinə göndərdiyi məktubda da iki dəfə yalnız 1941-ci il avqustun 14-də İngiltərə ilə ABŞ-ın imzaladıqları Atlantika xartiyasının (Sovet İttifaqı, İran və digər dövlətlər xartiyaya sonradan qoşulmuşdular) 3-cü maddəsindəki bu müddəaya istinad edirdi ki, “bütün xalqların özlərinə lazım bildikləri idarəetmə formasını seçmək hüquqları tanınır” (12, 148) və yazırdı ki, Azərbaycan Milli Məclisi və Milli Hökuməti Atlantika xartiyasına tam müvafiq formalaşdırılmışdır. Lakin Çörçill xartiyanın imzalanmasından üç həftə sonra həmin müddəaya qeyd-şərt bildirərək, bəyan etmişdi ki, İngiltərə və Amerika hökumətləri “Hazırda faşist Almaniyasının əsarəti altında olan Avropa dövlətləri və millətlərinin suverenliyinin, özünü idarə etməsinin və milli həyatının bərpa olunmasını” nəzərdə tutmuşlar” (11, 161).

Bununla belə, xalqların və millətlərin öz zülmkarlarına qarşı mübarizə hüququnun ədalətli olduğunu təcrübədə de-fakto təsbit etmiş bəşər tarixi Cənubi Azərbaycan milli-azadlıq hərəkatına haqq qazandırırdı. Bu mübarizə hüququ iki il sonra BMT Baş Məclisinin 10 dekabr 1948-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş, insan hüquqları haqqında ilk beynəlxalq sənəd olan “İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə”də “insanı son vasitə kimi istibdad üsuli-idarəsinə və zülmə qarşı qiyama məcbur etməmək” (13, 5) formulu ilə de-yure təsdiqini tapdı.

Sovet qoşunlarının İrandan çıxarılmasında və İran silahlı qüvvələri Cənubi Azərbaycana hücum edərkən İrana Sovet İttifaqının hərbi müdaxiləsinin qarşısının alınmasında İngiltərənin iştirakı danılmaz olsa da, ABŞ və BMT

müstəsna rol oynamışdılar (Qərb və İran tarixçiləri sonralar Azərbaycan məsələsini BMT-nin “həll etdiyi ilk məsələ” adlandırdılar).

İranın hakim dairələri ölkə ərazisinə ingilis və sovet qoşunları yeridiləndən sonra London və xüsusən də Moskvaya əks qüvvə kimi ABŞ-a istinad etmək siyasətini yeritməyə, ABŞ-a İranın müstəqilliyinin və ərazi bütövlüyünün təminatçısı kimi baxmağa başlamış və sonrakı hadisələr bu xəttin doğruluğunu sübuta yetirmişdi. Yuxarıda qeyd olunduğu kimi, ABŞ-ın da İranda strateji maraqları var idi.

1942-ci ilin əvvəlində üçtərəfli müqavilə imzalandıqdan sonra Məhəmməd Rza Pəhləvi fevralın 10-da ABŞ prezidenti F. D. Ruzveltə göndərdiyi teleqramda ondan İranın ərazi bütövlüyü və müstəqilliyinin təminatçısı olmağı xahiş etmişdi. Həmin il avqustun 9-da Qəvam yeni kabinetin təşkilindən sonra verdiyi bəyanatda öz proqramını açıqlayarkən, ABŞ ilə yaxın əlaqələrin qurulacağını bildirmişdi.

1942-ci ilin sonunda ABŞ qoşunlarını İrana yeridərkən Qəvam hökuməti buna heç bir etiraz bildirməmişdi. Beynəlxalq münasibətlərdə analoqu olmayan fakt idi ki, İkinci Dünya müharibəsi dövründə Amerika qoşunlarının İran ərazisində yerləşməsi haqqında ABŞ ilə İran arasında heç bir müqavilə, yaxud digər sənəd imzalanmamışdı. İrandakı Amerika səfirliyinin rəsmi məlumatına görə, Qəvam belə bir sənədi artıq şey hesab eləmişdi (20, 80). ABŞ-ın nüfuzunu ölkədə artırmaq üçün ikiqat səy göstərən İran hökumətinin tədbirləri sayəsində tezliklə İranın ordusu, maliyyə sistemi, bütün daxili və xarici ticarəti, sənayesi, ərzaq ehtiyatları və bölünməsi, avtomobil nəqliyyatı və bütün şose yollarında yük daşımaları ABŞ-ın nəzarəti altına keçmişdi. ABŞ sonrakı illərdə də müharibədən sonra İranda möhkəmlənmək məqsədilə müvafiq siyasət aparmışdı (1944-cü ilin əvvəlində İranda ABŞ qoşunlarının sayı 30 minə çatmışdı) və buna nail olmaq üçün SSRİ-nin İranda siyasi və hərbi istehkamı olan Azərbaycan muxtariyyətinin ləğv olunması və İranın ərazi bütövlüyünün bərpa edilməsi zəruri idi. İran və ABŞ problemin həllini Sovet qoşunlarının İrandan çıxarılmasında görürdülər.

İrandan müttəfiq dövlətlərin qoşunlarının çıxarılması şərti üçtərəfli müqavilə ilə müəyyənləşdirilmişdi. Müqavilənin 5-ci maddəsində göstərilirdi ki, “Müttəfiq dövlətlər ilə Almaniya və onun tərəfində müharibə aparan dövlətlər arasında bütün hərbi əməliyyatların qurtarmasından ən geci altı ay sonra müttəfiq dövlətlərin qoşunları İran ərazisindən çıxarılmalıdır” (12, 193 ). Bu tələbə görə qoşunlar 1946-cı il martın 2-dək (Yaponiyanın təslim olmasından sonrakı altı ay ərzində) İran ərazisini tərk etməli idilər.

1945-ci il Krım konfransında İngiltərə və ABŞ orduların vaxtından əvvəl çıxarılması təklifini irəli sürmüş, Sovet İttifaqı məsələnin müzakirəsindən imtina etmişdi. 1945-ci il noyabrın sonu-dekabrın əvvəlində müttəfiqlər arasında bu məsələ ilə əlaqədar nota mübadiləsi olmuşdu. İngiltərə və ABŞ-ın qoşunları yanvarın 1-dək İrandan çıxarmaq təklifi SSRİ tərəfindən qəbul edilməmişdi.

Dekabrın 16-da Moskvada işə başlayan xarici işlər nazirlərinin müşavirəsində SSRİ İran tərəfdən Bakının neft mədənləri üçün təhlükə gözlənildiyini bəhanə edib, martın 2-dək qoşunlarını İrandan çıxarmayacağını bildirdi. ABŞ isə qoşunlarını 1946-cı il yanvarın 1- dək İrandan çıxarmış, İngiltərə həmin tarixdən qoşunlarını çıxarmağa başlamışdı.

1946-cı ilin yanvar ayında Azərbaycan məsələsi beynəlxalq müzakirəyə çıxarıldı. Yanvarın 10 - da Londonda BMT Baş Məclisinin birinci sessiyası açıldı. Yanvarın 19-da İran SSRİ-nin İranın daxili işlərinə qarışması faktını təhqiq etmək tələbi ilə Baş katibə məktubla müraciət etdi. SSRİ isə məsələnin həllini ikitərəfli münasibətlər məcrasına yönəltməyə səy edirdi. Təhlükəsizlik Şurası 28 və 30 yanvar tarixli iclaslarında Sovet İttifaqı və İranın bəyanatlarını dinləyərək, hər iki tərəfin yaxın vaxtda danışıqlara başlamaq arzusunu nəzərə alaraq, danışıqlar barədə hesabat tələb etmək hüququnu özündə saxlamaqla müzakirəni yekunlaşdırdı.

1946-cı ilin fevral - mart aylarında Moskvada Qəvam ilə sovet rəhbərləri arasında aparılan danışıqlar zamanı Stalin demişdi ki, "SSRİ-nin qoşunlarımızın İranda qalmasını tələb edən başqa maraqları da vardır". Stalin ilə Molotov bildirmişdilər ki, "ABŞ-ın və Britaniyanın nə düşündüyü bizi maraqlandırmır, biz onlardan qorxmuruq" (14, 255-256). Molotov Sovet İttifaqının martın 2-dən etibarən İranın bəzi rayonlarından qoşunlarını çıxarmağa başlamaq niyyətində olduğunu söyləyərək əlavə etmişdi ki, sovet qoşunları İrandan o zaman tamamilə çıxarılacaqdır ki, İran hökuməti Sovet İttifaqı ilə münasibətdə düşmənçilikdən və ayrı-seçkilikdən tamamilə əl çəksin, Şimali İranda vəziyyəti tənzimləsin və Sovet İttifaqına münasibətdə dostluq siyasətini bərpa etsin .

İran tərəfinə aydın idi ki, Molotov Cənubi Azərbaycana muxtariyyət, SSRİ-yə neft konsessiyasının verilməsini nəzərdə tutur. Qəvam Cənubi Azərbaycana muxtariyyət verilməsinin qeyri-mümkünlüyünü irəli sürdüyünə və neft konsessiyası məsələsini isə hər vasitə ilə ləngitdiyinə görə sovet qoşunlarının da İrandan çıxarılmayacağı bəlli olurdu. İran ilə danışıqların heç bir səmərə vermədiyi məlum olanda, Qəvam hələ Moskvada ikən martın 4-də 15 sovet zirehli briqadası İranın şimal-qərbindən Azərbaycan əyalətinə daxil olub, İran-Türkiyə sərhədindən mərkəzə doğru hərəkətə başladı. Daha bir ordu Bolqarıstandan Türkiyənin Avropa sərhədlərinə doğru irəlilədi. 450 sovet ağır texnikası Təbrizdən Tehran istiqamətində hərəkətə başladı.

ABŞ prezienti Trumen bunun müqabilində piyada, dəniz və hərbi hava qüvvələrinin komandanlarına ordunu tam hərbi hazırlığa gətirməyi əmr etdi və martın 6-da ABŞ-ın Sovet İttifaqına verdiyi notada göstərilirdi ki, Sovet İttifaqı martın 2-dən sonra da qoşunlarını İranda saxladığına görə Amerika hökuməti bu məsələnin BMT Təhlükəsizlik Şurasında müzakirəsinə razılıq vermişdir və bu barədə SSRİ-ni xəbərdar edir. Martın 8-də verilmiş notada ABŞ məsələni daha kəskin qoyaraq, SSRİ-dən İrana əlavə qoşun göndərməsi barədə izahat tələb edirdi.

Martın 18-də, İran hökuməti tərəddüd göstərsə də, ABŞ-ın təzyiqi ilə İranın BMT-dəki nümayəndəsi Hüseyn Əla İranın müraciətini BMT-nin Baş katibi Tryuqve Liyə təqdim etdi. Müraciətdə İran hökuməti SSRİ-nin İranın daxili işlərinə qarışması məsələsinin BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılmasını xahiş edirdi.

Martın 24-də SSRİ qəfildən qoşunlarını İrandan çıxarmaq haqqında qərarını elan etdi. Təhlükəsizlik Şurasının aprelin 4-də qəbul edilmiş qətnaməsində göstərilirdi ki, qoşunların çıxarılmasının ləngidildiyi təqdirdə Təhlükəsizlik Şurası SSRİ-dən izahat tələb edə bilər.

SSRİ-nin öz qoşunlarını İrandan çıxarmaq haqqında qəfil və gözlənilməz qərarının səbəbləri bu günədək araşdırma və müzakirə obyekti olaraq qalır. İrana əlavə qoşun hissələri və hərbi texnika yeridilərək irimiqyaslı hərbi əməliyyatlar keçirilməsi planlaşdırıldığı bir vaxtda sovet qoşunlarının İrandan çıxarılması daha çox ABŞ-ın martın 21-də, yaxud 23-də SSRİ-yə verdiyi ultimatumla əlaqələndirilir. Ultimatum məsələsinin ABŞ-ın hərbi qüdrətini şişirtmək məqsədilə ortaya atıldığını, qoşunların çıxarılmasının SSRİ-nin sülhpərvər siyasətinin nəticəsi olduğunu, yaxud İrandan neft konsessiyası almaq ümidi ilə əlaqədar olduğunu iddia edənlər də var. Problemi dərindən tədqiq etmiş C. Həsənli bu nəticəyə gəlmişdir: "Güman etmək olar ki, bu təcili qərar Vaşinqtonun şifahi və ya yazılı təzyiqi nəticəsində qəbul edilmişdi" (14, 299). Səfir İ. Sadçikovun Pişəvəri ilə söhbəti haqqında 1946-cı il mayın 4-də SSRİ Xarici İşlər Nazirliyinə və Bağırova göndərdiyi məktub da buna dəlalət edir. Səfir yazırdı ki, "Mən uzun-uzadı və təkidlə ona izah etməli oldum ki, azərbaycanlıları müdafiə etmək vasitələrimizin hamısı tükənib; yalnız bir vasitə qalıb – müharibə, bizsə müharibə edə bilmərik"(14, 353).

ABŞ-ın SSRİ üzərindəki bu üstünlüyünü atom silahına əsaslanan fövqəldövlətçilik iddiasının gerçəkləşməsinin başlanğıc tarixi kimi qəbul etmək olar. ABŞ prezidenti vəzifəsini icra etməyə başlayandan az sonra Trumen bəyan etmişdi ki, "İkinci dünya müharibəsində qazanılmış qələbə Amerika xalqının üzərinə dünyaya daimi rəhbərlik etmək məsuliyyətini qoymuşdur" (25, 549).

Amerika siyasətinin bu xəttinin formalaşmasında həmin dövrdə ABŞ-ın yeganə dövlət olaraq atom silahına malik olması əsas rol oynamışdı. ABŞ ordusunun keçmiş qərargah rəisi general Maksuell Teylor sonralar həmin dövrdə Amerika xarici siyasətinin mahiyyətini belə şərh etmişdi: "Atom bombasının müdhiş dağıdıcı gücü belə fikir yaratmışdı ki, bizim hərbi-hava qüvvələrimiz indi mühüm həlledici silaha malikdir və bu, Birləşmiş Ştatlara dünya üzərində polis nəzarəti bərqərar etmək və dünyaya bir növ *Pax Americana*-nı (Amerikasayağı sülhü) qəbul etdirmək imkanı verir" (16, 23).

İran hökumətinin Cənubi Azərbaycana qoşun yeridib, milli azadlıq hərəkatını darmadağın etməsi də, yuxarıda göstərildiyi kimi, ABŞ-ın hərbi və siyasi yardımı və BMT-nin dəstəyi ilə gerçəkləşdirilmişdi. Məhz ABŞ hökumət qoşununun Şimali İrana yeridilməsinin münasib vaxtını məsləhət görmüş və onu hərbi texnika ilə - 40 tank, 150 təyyarə və digər sursatla təmin etmişdi.

Aərbaycana hücumda 1943-cü ilin oktyabrından ABŞ polkovniki Norman Şvartskopfun başçılıq etdiyi İran jandarmeriyası da fəal iştirak edərək, demokratlara divan tutmaqda nümunə göstərmişdi. Buna görə əməliyyatlardan sonra ona general-mayor rütbəsi verilmişdi. (19, 57-58).

1946-cı ilin payızında ABŞ-ın dövlət departamentində Yaxın Şərqdə siyasət məsələsi müzakirə olunarkən bu nəticəyə gəlinmişdi ki, İranın sovet dominionuna çevrilməsi təhlükəsi mövcuddur və bu, Amerikanın regiondakı maraqları ilə tamamilə ziddiyyət təşkil edir. Hadisələrin gedişini Amerikanın xeyrinə dəyişdirə biləcək tövsiyələr hazırlanmışdı və onların əsas qayəsi Cənubi Azərbaycanda öz hakimiyyət səlahiyyətlərini bərpa etməkdə İrana yardım göstərməkdən ibarət idi.

Azərbaycana qoşun yeritməyə hazırlaşan Qəvam 1946-cı il noyabrın 24-də BMT-yə müraciət hazırlamış və ABŞ-ın İrandakı səfiri C. Allendən hökumətinin buna dəstək verməsini xahiş etmişdi. Noyabrın sonunda dövlət departamentindən Qəvamın bu niyyətinin bəyənildiyi və müdafiə ediləcəyi bildirilmişdi.

Noyabrın 27-də ABŞ-ın İrandakı səfiri C. Allen “Ettelaat” qəzetinin Azərbaycana qoşun yeridilməsi ilə əlaqədar sualına belə cavab vermişdi: “İran hökumətinin İranın bütün hissələrinə (nəzarət edilməyən məntəqələr də daxil olmaqla) nəzarət qüvvələri göndərməsi haqqında elan olunmuş niyyəti qəti, normal və münasib bir qərardır” (4, 143). Səfir “nəzarət edilməyən məntəqələr” deyəndə, Azərbaycanı və Kürdüstanı nəzərdə tuturdu və əlavə etmişdi ki, İranın suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanılması yalnız üçtərəfli müqavilənin prinsiplərindən biri deyil, həm də ABŞ-ın siyasətinin məqsədidir.

Noyabrın 29-da ABŞ-da İranın yeni səfiri təyin olunmuş Hüseyn Əla etimadnaməsini prezident Trumenə təqdim edərkən, “sovet təhlükəsi” haqqında uzun şikayətini belə bitirmişdi: “Cənab prezident, bu böhranlı vəziyyətdə İranın hüququnun qorunmasını davam etdirməyinizi açıqcasına xahiş edirəm. Yalnız sizin ölkəniz bizi xilas edə bilər, ona görə ki, siz həmişə əxlaqi idealları və prinsipləri müdafiə etmisiniz və sizin əlləriniz təmizdir” (17, 31).

Dekabrın 4-də ABŞ səfiri Tehranda yeni bəyanatla çıxış etdi. Bildirdi ki, Azərbaycan İranın tərkib hissəsidir və İranın öz ordusunu ölkənin bir hissəsindən digər hissəsinə aparmasının Rusiyanı narahat etməsini başa düşə bilmir.

Dekabrın 5-də Hüseyn Əla “Azərbaycan əyalətində cari vəziyyət haqqında” əvvəlcədən hazırlanmış raportu BMT Təhlükəsizlik Şurasının sədri X. V. Consona təqdim etdi.

Dekabrın 6-da dövlət katibinin müavini Din Açeson Rusiyaya xəbərdarlıq etdi ki, İrana qarşı heç bir hərəkətə yol verməsin. Trumenin tapşırığı ilə dövlət departamenti də Moskvaya bildirdi ki, ABŞ hökuməti Sovet İttifaqının Azərbaycan işlərinə hər hansı bir şəkildə qarışmasını cavabsız qoymayacaq.

İranın hökumət qoşunları Azərbaycanın zəbtini başa çatdırandan sonra ABŞ-ın SSRİ-dəki səfiri Smit dekabrın 27-də dövlət katibinə göndərdiyi

analitik məktubda yazırdı: "Əgər məsələ yalnız SSRİ ilə İran arasında həll olunsaydı, sovet qoşunları çoxdan Zəncanda olardı. Məhz Qəvamın BMT-yə müraciəti nəticəsində SSRİ BMT ilə və bu məsələ ilə fəal məşğul olan ABŞ ilə qarşıdurmadan çəkindi" (14, 452).

İran şahının fikrincə də Azərbaycan hərəkatının darmadağın edilməsinin ən başlıca səbəbi bu münaqişəyə cəlb edilmiş bütün tərəflərin (Sovet İttifaqı, İran və Azərbaycan) ABŞ-ın İranın suverenliyinə ciddi yardım göstərəcəyinə inanmaları idi (24, 132). Azərbaycan üzərində qələbəni bayram edən mürtəce dairələrdə ən çox səslənən bu idi ki, "Amerika Azərbaycanı İrana qaytardı".

Beləliklə, aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, SSRİ-nin Cənubi Azərbaycanda həyata keçirmək istədiyi sonadək düşünülməmiş və avantüra mahiyyətli siyasəti (Bağırovun səmimi qəbul etdiyi və öz əlavə proqramı ilə yeritdiyi, Pişəvərinin daha çox inanmaq istədiyi, qismən şübhə etdiyi siyasət – "mən sizə əvvəldən inanmırdım") məhz ABŞ-ın qətiyyəti və təzyiqi ilə iflasa uğradı. Sovet İttifaqının itirdiyi müəyyən ərazi (Şərqi Avropada on dəfələrlə çox əraziyə yiyələnmişdi) və müəyyən barel neft oldu. Cənubi Azərbaycan əhalisi isə milli faciəyə məruz qaldı və ən əsası, uzun illər ərzində istiqlal inamını itirdi. Sovet tərəfindən Cənubi Azərbaycanda demokratik hərəkatın rəhbərlərindən biri olmuş M. İbrahimov yazırdı ki, "...Azərbaycan xalqı yarım əsrin ərzində üç böyük çıxış ilə əsarət altında yaşamaq istəmədiyini, öz cəlladlarına nifrət etdiyini göstərdi. Hərgah xarici qüvvələr və tarixi şərait onun zülm zəncirlərinin əbədi olaraq qırılmasına imkan verməmişsə, burada nə onu, nə də onun başçılarını ittiham etmək olmaz" (7, 90).

Bununla belə, İranda Cənubi Azərbaycan xalqının istiqlal ideyası müqəddəs ideyadır və tarixin hansısa dönəmində gerçəkləşəcəyinə şübhə yoxdur. Tarixin hansısa dönəmində Cənubi Azərbaycanın müstəqil Azərbaycan dövləti ilə birləşəcəyi də şübhə doğurmamalıdır. İmperiyaların məhvini şərtləndirən tarix buna da qadir olacaq. Lakin Cənubi Azərbaycan əhalisi bir daha özünün böyük dövlətlərin məkrli oyunlarının qurbanına çevrilməsinə imkan verməməlidir.

## ƏDƏBİYYAT


1. ARPİİDSPİHA: f.1, siy. 89, iş 197, v. 117
2. ARPİİDSPİHA: F 1, siy. 89, iş 187, vv. 10-17; 23-40
3. ARPİİDSPİHA: F 1, siy. 89, iş 197, v. 112
4. Çeşmazər M. M. Azərbaycan Demokrat Partiysının yaranması və fəaliyyəti. Bakı: Elm, 1986
5. Haçimi Ə. Ə. Mübarizələrdə keçən ömür. Bakı: Maarif, 2002, 136 s.
6. Xalqa müraciət. "Azərbaycan" qəz., Təbriz, 1945, 23 noyabr
7. İbrahimov M. Ə. Cənubi Azərbaycanda milli-demokratik hərəkat haqqında // İnqilab və mədəniyyət, 1947, № 4, s. 77-104

8. Pişəvəri M. C. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1984, 430 s.
9. Pişəvəri S. C. Xatirələr (1941-1945). Bakı: Azərbaycan Demokrat Firqəsinin nəşri, 2005, 394 s.
10. Алиев С. М. История Ирана: XX век. М.: ИБ РАН-Крафт+, 2004, 648 с.
11. Атлантическая хартия / Дипломатический словарь / Гл. Ред.: А. А. Громыко, И. Н. Земсков, В. М. Хвостов. В 3-х т. Т. 1, М.: Политиздат, 1971, 612 с.
12. Внешняя политика Советского Союза в период Отечественной войны. Документы и материалы. 22 июня 1941 г.-31 декабря 1943 г. В 3-х т. Т. 1, М.: Политиздат, 1944, 700 с.
13. Всеобщая Декларация Прав Человека. Издание Департамента общественной информации ООН, 20 с.
14. Гасанлы Дж. П. "СССР-Иран: Азербайджанский кризис и начало холодной войны. 1941-1946". М.: Герои отечества, 2006, 560 с.
15. Гасанов Г. М. Иранский дневник (1944-1946 гг.). Баку: Элм, 2007, 576 с.
16. История внешней ролитики СССР: в 2-х т. Т 2, М.: Наука, 1981, 780 с.
17. Лавренов С. Я., Попов И. М. Советский Союз в локальных войнах и конфликтах. М.: АСТ, 2003, 608 с.
18. Люлечник В. И. Забытые страницы Второй Мировой войны: как Советский Союз и Великобритания в 1941 году оккупировали Иран. Газ. «Русская Америка», 2005, № 337
19. Орлов Е. А. Внещняя политика Ирана после Второй Мировой войны. М.: Наука, 218 с.
20. Парвизпур Б. С. Советско-Иранские отношения в годы Второй Мировой войны (1939-1945). Тбилиси: Мецниереба, 1978, 108 с.
21. Советский Союз на международных конференциях периода Великой Отечественной войны 1941-1945 гг. В 6-ти т. Т. 2 (Тегеранская конференция руководителей трех союзных держав – СССР, США и Великобритании (28 ноября – 1 декабря 1943 г.), М.: Политиздат, 1984, 176 с.
22. Советский Союз на международных конференциях периода Великой Отечественной войны 1941-1945 гг. В 6-ти т. Т. VI (Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав – СССР, США и Великобритании (17 июля – 2 августа 1945 г.), М.: Политиздат, 1980, 552 с.
23. Churchill Winston S. The second world war. The third vol. New York: Bantam Book, 1962, 654 p.
24. Pahlavi, M. Reza Shah. Mission for my Country. London: Hutchinson, 1961, 620 p.
25. Public Papers of the Presidents of the United States. Washington: 1961, 648 p.
26. امیرعلی لاهرودی. یاد مانده ها و ملاحظه ها. باکو: نورلان، ,2007، 751 صح

**Summary**

**THE ASPIRANT OF THE INSTITUTE OF SCIENTIFIC RESEARCH OF AZERBAIJAN ACADEMY OF NATIONAL SCIENCES**

***Khagan BALAYEV***
*(Azerbaijan National Academy of Sciences)*

The defeat of the national-liberation movement in South Azerbaijan (in 1941 – 1946): political and geopolitical reasons.

In the report, political and geopolitical reasons for the defeat of the movement of national liberation in South Azerbaijan launched and lead by the USSR and resulted with the declaration of Azerbaijan autonomy are researched and defined. The Author comes to the conclusion that in spite of the fact that political reasons negatively influenced the movement, they were not the main reason. Geopolitical reasons – The clash of interests of The USSR, The USA and Great Britain (to get Iran oil and to attain the sphere of influence there) – were the main reason of the defeat of the movement. The USA, depending on its military power, with diplomatic and military help to Iran made the USSR take a step back, and achieved the abolition of Azerbaijan National Autonomy.

**Key words:** South Azerbaijan, the movement of national – liberation, Stalin, Pishavari, political reasons, geopolitical reasons.